# COP29 ərəfəsində ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası və haqsız ittihamlar təəccüb doğurur - RƏY

Noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 beynəlxalq tədbiri yaxınlaşdıqca ölkəmizə Qərb mediası və ekspertləri tərəfindən böhtanlar da artır. Azərbaycana COP29-a ev sahibliyi etmək hüququ verildikdən sonra ölkəmiz qərəzli fikirlərə əsaslanan kəskin tənqidlərə məruz qalır. Qondarma "fəallar" və Qərb mediası Azərbaycanı təbii sərvətlərlə zəngin ölkə olduğuna görə tənqid edirlər. Lakin Qərb yaddan çıxarmamalıdır ki, Azərbaycan onların enerji təhlükəsizliyini ən çətin vaxtda dəstəkləyib və Avropa İttifaqının məmurları ən yuxarı səviyyədə Azərbaycanı etibarlı tərəfdaş adlandırırlar.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Şahmar Hacıyev bildirib.

Onun sözlərinə görə, bütövlükdə, ölkənin "yaşıl enerji mərkəzinə" çevrilməsi Azərbaycanın enerji siyasətinin əsas komponentidir. Ölkəmiz həm də regional səviyyədə yaşıl keçidi dəstəkləyir. Belə ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Qara dəniz sualtı kabel layihəsi ilə bağlı mühüm sənəd imzalayıblar. Bu layihə də elektrik enerjisinin regionumuzdan Avropaya ixracını stimullaşdırır, Avropanın yaşıl təşəbbüslərini və dekarbonizasiya prosesini dəstəkləyir.

"Azərbaycanın həyata keçirdiyi bütün layihələr və COP29 təşəbbüsləri bir daha sübut edir ki, rəsmi Bakı iqlim dəyişikliyi məsələlərinə çox həssas yanaşır, ölkəmizdə və regionda yaşıl iqtisadiyyatı dəstəkləyir. Əfsuslar olsun ki, bütün pozitiv işləri görməzdən gələn qüvvələr erməni lobbisinin də təsiri altında regionda sülhün və inkişafın bərqərar olunmasında maraqlı deyillər və ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası və haqsız ittihamlar təəccüb doğurmaya bilməz. Azərbaycanın əsas məqsədi COP29-da real nəticənin əldə edilməsidir, çünki bir çox dövlətlər iqlim dəyişmələri nəticəsində həm siyasi, həm də iqtisadi böhranlarla üzləşirlər. Bu kontekstdə bizim əsas vəzifəmiz Azərbaycanın həyata keçirdiyi yaşıl enerji konsepsiyasını və layihələri dünya mətbuatında işıqlandırmaq və ölkəmizin haqlı mövqeyini nümayiş etdirməkdir", - deyə o bildirib.

Ekspert qeyd edib ki, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. "Bundan başqa, Azərbaycanda yaşıl enerjiyə keçid sürətlənib və bu istiqamətdə əhəmiyyətli işlər görülür. Azərbaycan müxtəlif bərpa olunan enerji layihələrini həyata keçirmək üçün Masdar, ADNOC, ACWA Power, TEPSCO, Bp və China Gezhouba Group Overseas Investment ilə bir sıra mühüm yaşıl enerji sazişləri imzalayıb. Məsələn, 2024-cü ildə Masdar regionda ən böyük Qaradağ Günəş Parkının açılışından sonra iki günəş enerjisi layihəsi və ümumi gücü 1 GVt olan bir külək layihəsi üçün üç investisiya müqaviləsi imzalayıb. Layihələr Azərbaycanın 2030-cu ilə qədər enerji istehsalının 30 faizini bərpaolunan enerjidən əldə etmək ambisiyalarını dəstəkləyir", - deyə siyasi ekspert əlavə edib.

**AZƏRTAC**
**2024, 7 noyabr**